Azərbaycan Respublikası Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Təhsil Nazirliyinin 19 avqust 2008-ci il tarixli əmri ilə təsdiq edilmiş "Fəaliyyət Planı"nın 5-ci və 17-ci bəndlərinin icrasını təmin etmək məqsədilə

ƏMR EDİRƏM

1. 2011-ci ildən etibarən hər il təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində "Təhsildə İnternet texnologiyaları" və "Müasir məktəbdə elektron tədris resursları" istiqamətləri üzrə "Elektron Təhsil" Respublika müsabiqəsi keçirilsin.

2. "Elektron Təhsil" Respublika müsabiqəsinin əsasnaməsi, müsabiqənin Təşkilat Komitəsinin və Münsiflər Heyətinin tərkibi təsdiq edilsin. (1, 2, 3 saylı əlavələr).

3. Təşkilat Komitəsi müsabiqənin keçirilmə müddətini, mərhələlərinin müəyyən edilməsini və əsasnamədə nəzərdə tutulmuş digər tədbirlərin lazımi səviyyədə həyata keçirilməsini təmin etsin.

4. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə tapşırılsın (S.Məmmədov) :

4.1. Əsasnamədə nəzərdə tutulmuş tədbirlərin vaxtında və lazımi səviyyədə həyata keçirilməsini təmin etsin.

4.2. Ən yaxşı layihələr haqqında geniş məlumatların Təhsil Portalında yerləşdirilməsini təmin etsin.

4.3. "Elektron Təhsil" Respublika müsabiqəsinin keçirilməsi üçün xərclər smetası təsdiq edilsin. (4 və 5 saylı əlavələr).

5. Nazirliyin İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) müsabiqənin bütün mərhələlərinin gedişinin videolentə alınmasını, əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Misir Mərdanov

Azərbaycan Respublikasının

təhsil naziri

15 aprel 2011-ci il

№ 573

"Elektron Təhsil" Respublika müsabiqəsinin Əsasnaməsi

"Elektron Təhsil" Respublika müsabiqəsinin Təşkilat Komitəsinin tərkibi

“Elektron Təhsil” Respublika müsabiqəsində iştirak üçün Ərizə forması

“Elektron təhsil” Respublika müsabiqəsində “Təhsildə İnternet texnologiyaları" istiqaməti üzrə təqdim edilən işlərin qiymətləndirmə meyarları

“Elektron Təhsil” Respublika müsabiqəsinə “Müasir məktəbdə elektron tədris resursları” istiqaməti üzrə təqdim edilən Layihələrin qiymətləndirmə meyarları